

# Şəhid məzunlarının xatirəsi anılıb

## Xalq Təhsili Muzeyində anım günü

Xalq Təhsili Muzeyində oktyabrın 30-da Bakı şəhər Sabunçu rayonu 170 nömrəli tam orta məktəbin şəhid məzunlarına həsr olunmuş anım günü keçirilib. Tədbirdə məktəbin müəllim və şagirdləri, şəhidlərin ailə üzvləri, müharibə iştirakçıları və Xalq Təhsili Muzeyinin kollektivi iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Anım mərasimini giriş sözü ilə Xalq Təhsili Muzeyinin direktor vəzifəsini icra edən Z.Şiriyeva açaraq şəhidlik zirvəsinə ucalan Vətən oğullarımızın daim ehtiramla anılacağını bildirib. Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Z.Şiriyeva 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi və qətiyyəti, Müzəffər Ordumuzun rəşadəti və xalqımızın iradəsi sayəsində əldə etdiyimiz böyük qələbədən söz açıb. Anım günündə muzeyin direktor müavini K.Həsənova "Zəfər salnaməsi" adlı məruzə ilə çıxış edərək Azərbaycan xalqının keçdiyi tarixi mübarizə yollarından, şəhid və qazi ailələrinə dövlət qayğısından bəhs edib.

Daha sonra məktəbin direktoru Ü.Aslanova vaxtilə işğal altında olan torpaqlarımızın tarixi, coğrafiyası və mədəni dəyərlərini şagirdlərə təbliğ etmək məqsədilə həyata keçirdikləri "Qarabağı tanıyaq və tanıdaq" adlı layihə, məktəbin şəhid məzunları barədə məlumat verib, videoçarx nümayiş etdirilib. Məktəbin müəllimləri G.Mirişova, Ə.Daşdəmirova, A.Məmmədova çıxış edərək qəhrəman məzunları ilə bağlı xatirələrini bölüşüb, vətənə layiqli övladlar böyütdüklərinə görə şəhid valideynlərinə öz təşəkkürlərini bildiriblər.

Şəhid valideynləri G.Mehdiyeva, N.Alıyev, S.Vəliyeva, şəhidin bacısı M.Alıyeva, şəhidin sinif yoldaşı, müharibə iştirakçısı M.Baxışov Vətən və xalq yolunda canından keçən və əbədiyyətə qovuşan yaxınlarından kədər və qürur hissi ilə bəhs ediblər. Tədbirdə 170 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında vətənpərvərlik mövzusuna həsr olunmuş şeir və mahnılar səsləndirilib. Sonda tədbir iştirakçıları Xalq Təhsili Muzeyinin ekspozisiyası ilə tanış olublar.